

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 27 noyabr 2020-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


Təəssüf ki, dünya Azərbaycanlı uşaqların qətlinə susur — səh. 4

Jurnalistika fakültəsi Bəyanat yayıb — səh. 4

BDU-nun əməkdaşlıq etdiyi xarici ölkə universitetlərindən Azərbaycana dəstək — səh. 6

Bayrağımız ölkəmizin işğaldan azad olunmuş bütün yaşayış məntəqələrində dalğalanacaq — səh. 6

"Bayraq mənliyimdir" adlı tədbir keçirilib — səh. 6

Tarixi abidələrimiz bizim əbədi keçmişimizdir — səh. 7

Qarabağda qalmayacaq izi düşmənin... — səh. 7

Elm və ədəbiyyat adamı — səh. 7

BDU-nun birinci kurs tələbələrindən 15 nəfəri Prezident təqaüdçüsüdür — səh. 8




**BDU-nun rektoru Universitetin kollektivi adından Prezident İlham Əliyevə müraciət ünvanlayıb**

Səh.2



**Qarabağın fəthi Xalq-Komandan-Ordu birliyinin Qələbəsidir!**

Səh.3



**17 Noyabr - Milli Dirçəliş Günüdür**

Səh.4



**Bərdə şəhəri təkcə Azərbaycanın deyil, Şərqin qədim mədəniyyət mərkəzlərindən biridir**

Səh.5



# Hərb tariximizin şanlı səhifəsi

## *Azərbaycanın şanlı tarixinə 10 Noyabr günü qızıl hərflərlə daxil oldu*

Dünya ölkələrinin tarixində bir çox müharibələr, işğallar, geri qayıdışlar və qələbələr baş vermişdir. Azərbaycanın şanlı tarixinə 10 Noyabr günü qızıl hərflərlə daxil oldu. Belə ki, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi və düşmən məğlubiyyətini etiraf edərək ağ bayraq qaldırdı. Düşmənin ağ bayraq qaldırması ilə yanaşı uzun illərdir işğalda olan ərazilər də öz həqiqi sahiblərinə qayıtdı.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Baş nazirinin Azərbaycan Prezidenti İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiyaya razılığını verdi. Halbuki Ermənistan hakimiyyəti Azərbaycanın dəmir yumruğunu öz üzərində hiss etməyənə qədər torpaqları geri qaytarmaqla razılaşmır, Şuşanı qondarma rejimin paytaxtı etmək istəyir və Azərbaycana qıcıq yaradacaq addımlar atırdı.

Ermənistanın 30 il ərzində yaratdığı ordu sadəcə 44 gün tab gətirdi və beləliklə, dünya ictimaiyyətində Ermənistan ordusu haqqında yaranan yenilməzlik mifi puç oldu. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə haqq mübarizəsinə qalxdı və düşmən ərazilərimizdən çıxarıldı. Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək ən müasir silahlardan istifadə etməklə, habelə minimal itkilər verərək qısa müddət ərzində düşmənin bütün hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb oldu. Yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın azad edilməsi əməliyyatı Azərbaycanın hərb tarixinin ən parlaq səhifəsidir !



**BDU və Kyunqvoon Universiteti arasında memorandum imzalanıb**

Səh.6



**BDU-da profilaktik və preventiv tədbirlər gücləndirilib**

# BDU-nun rektoru Universitetin kollektivi adından Prezident İlham Əliyevə müraciət ünvanlayıb



*Möhtərəm Prezident,*
*Müzəffər Ali Baş Komandan!*

Bu gün Sizin yüksək idarəçiliyiniz, qətiyyətiniz və bacarığınız, xalqımızın siyasi iradəsi, Ordumuzun gücü və qüdrəti sayəsində 30 illik işğala son qoyulur. Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın Böyük Qələbəsi ilə başa çatdı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və biz tarixi torpaqlarımıza, doğma Qarabağımıza qayıdırıq. Bütün dünya azərbaycanlılarının sevinc və coşğusuna səbəb olan bu zəfərin memarı, bu möhtəşəm nailiyyətləri qızıl hərflərlə Azərbaycan tarixinə yazan Sizsiniz, Ali Baş Komandanı olduğunuz Şanlı Ordumuzdur!

Son 44 gündə Sizin rəhbərliyinizlə Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrini darmadağın edərək onların cinayətkar hərbi-siyasi rəhbərliyini diz çökdürdü. Üçrəngli bayrağımızın noyabrın 8-də Qarabağın döyünən ürəyində - Şuşada dalğalanması hər birimizi qürurlandırdı. Şuşanın işğaldan azad olunması növbəti qələbələrimizin təməlini qoydu. Noyabrın 10-da verilmiş üçtərəfli Bəyanat Ermənistanın siyasi məğlubiyyətini, hərbi kapitulyasiyasını rəsmi şəkildə təsdiq etdi. Bu Bəyanat Ordumuzun döyüş meydanında əldə etdiyi möhtəşəm hərbi zəfərlərin davamı kimi Azərbaycanın siyasi qələbəsi oldu. Son illər ərzində ölkəmizdə aparılan quruculuq işləri, mövcud olan ab-hava, xalq-iqtidar birliyi, ordu quruculuğu, siyasi münasibətlərin yüksək səviyyəyə qalxması - bütün bu amillər qələbəmizi şərtləndirdi.

Bu tarixi Qələbə xalqımızın həmrəyliyi, Müzəffər Ali Baş Komandanın dəmir yumruğu ətrafında sıx birləşən insanlarımızın inamı və Azərbaycan Ordusunun məğlubedilməzliyi, hünəri və qətiyyəti sayəsində mümkün oldu. Bu Qələbə bizim sarsılmaz birliyimizi, hərbi gücümüzü və mübarizlik əzmimizi bütün dünyaya nümayiş etdirdi. Xalqımızın əsrlərə, nəsillərə örnək və dastan olacaq sərkərdəsi kimi adınızı Azərbaycan tarixinin şanlı səhifələrinə qızıl hərflərlə həkk etdirdi.

Torpaqlarımız uğrunda canını, qanını fəda etmiş qəhrəman oğullarımızın, şəhidlərimizin, həlak olan mülki vətəndaşlarımızın qisası alındı. Şəhid qardaş və bacılarımızın xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Əminik ki, Azərbaycan gəncliyi və gələcək nəsillər onları daim fəxr və qürurla yad edəcəklər.

Əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağımızı bizə geri qaytaran bu şanlı qələbəmiz münasibətilə Sizi və bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirik.

BDU ailəsi olaraq, biz həmişə yanınızdayıq və hər zaman əmrinizdəyik!

Biz çox sevincliyik ki, bizim milli kimliyimizi, qürurumuzu, xalqımızın iradəsini dünyaya sübut edən, başımızı uca, alnımızı açıq edən Sizin kimi məğrur rəhbərimiz var. Bu gün xalqımız Böyük Qələbənin sevincini yaşayır. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

*Eşq olsun Müzəffər Ali Baş Komandana!*
*Eşq olsun Müzəffər Azərbaycan Ordusuna!*
*Eşq olsun məğrur Azərbaycan xalqına!*

***Bakı Dövlət Universitetinin çoxminli professor-müəllim heyəti və tələbələri adından dərin hörmət və ehtiramla, Babayev Elçin, rektor***

***Azərbaycan Respublikası, Bakı şəhəri***
***President.az, 12 noyabr***

# MİLLİ KİMLİYİMİZİN SİMVOLU - ŞUŞA, SƏN AZADSAN!

**Bu gün o bəxtəvər günün sevincini yaşayırıq. Bəxtəvərsən Azərbaycan, Şuşada bayrağın dalğalanır! Əsgərlərimiz Şuşadan raport verir. Şuşa məscidindən 28 il sonra azan səsləri eşidilir. Duaların qəbul oldu, Azərbaycan! Allah səni hifz etdi. Dünya durduqca var ol, məmləkətim!**




***Cəmi bir həftə əvvəl Ali Baş Komandanımız, yenilməz sərkərdəmiz İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun tarixi ərazilərimizi işğaldan azadetmə əməliyyatları ilə bağlı qələmə aldığım yazımı - "Böyük qələbənin mübarək addımlarının səsi eşidilməkdədir" - cümləsi ilə bitirmişdim. Nəhayət o mübarək günlərdən biri gəldi! Müzəffər Ali Baş Komandanımız Qarabağımızın ürəyi Şuşa şəhərinin işğaldan azad olunması müjdəsini xalqımıza çatdırdı.***

Mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın, muğam sənətimizin beşiyi, qeyrətimizin, milli kimliyimizin simvolu Şuşa Qalasının işğaldan azad olunması xəbəri o qədər möhtəşəm, o qədər şanlı, o qədər qürurlu bir xəbərdir ki, dünya dillərinin bütün söz və ifadələri, bədii təsvir vasitələri, metaforalar, təşbehlər bu hissi, bu duyğunu ifadə etməyə acizdir. Bu xəbərin gətirdiyi əhval-ruhiyyə, yaratdığı izaholunmaz ovqat o qədər böyük, o qədər möcüzəvi və eyni zamanda qutsaldır ki, bütün bunları yazıya almaq, vərəqlərə köçürmək ya mümkün deyil, ya da olduqca çətindir.

Sentyabr ayının 27-dən mənfur düşmənlərimizin təxribatlarına cavab olaraq başlatdığımız uğurlu əks-hücum əməliyyatlarının tezliklə ildırım sürətli müharibəyə çevrilməsi, 30 illik işğala qısa müddətdə son qoyulması, nəhayət tariximizin ən şərəfli, ən böyük, ən qürurlu gününü yaşamağımızla - Qarabağımızın ürəyi, baş tacımız Şuşa Qalasının işğaldan azad edilməsi ilə milyon illik tariximizə ən parlaq, ən şanlı səhifələr yazıldı. Dəfələrlə "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu mən bilirəm" - deyən möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin sərkərdəliyi ilə müzəffər ordumuz tarixi ədaləti bərpa etdi, Birləşmiş Millətlər Təşkilatının uzun illərdir ki, kağız üzərində qalan qətnamələri döyüş xəttində, səngərdə zabit və əsgərlərimizin misilsiz qəhrəmanlıqları ilə həyata keçirildi. Ölkə Prezidentinin istər diplomatik cəbhədə, istərsə də döyüş xəttində qazandığı möhtəşəm nailiyyətlərdən aqoniya vəziyyətinə düşən mənfur qonşularımız və havadarları müzəffər Azərbaycan Ordusunun Şuşanın fəthi xəbərindən sonra yəqin ki, heç bir zaman özlərinə gələ bilməyəcəklər və ölkə rəhbərimizin dediyi kimi - bir daha biz tərəfə baxmağa belə cəsarət etməyəcəklər. Heç şübhəsiz ki, bu xəbərin yaratdığı ruh düşkünlüyü terrorçu Ermənistanda ən qısa müddətdə daxili iğtişaşları da dərinləşdirəcək, Azərbaycanda günü-gündən möhkəmlənən xalq-iqtidar birliyinin, sarsılmaz sabitliyin fonunda mənfur qonşularımız sonu görünməyən vətəndaş müharibəsinə sürükləcəklər.

Vətən savaşının başladığı ilk gündən cəsarətli, prinsipial və ardıcıl mövqeyini ortaya qoyan möhtərəm Prezidentimiz Şuşasız bizim işimiz yarımçıq qalar - söyləmişdi və verdiyi bütün vədlər kimi bu vədini də ən qısa müddətdə yerinə yetirdi Ali Baş Komandanımız! Allaha şükürlər olsun ki, işimiz yarımçıq qalmadı, şəhidlərimizin qanı ilə boyanan müqəddəs bayrağımız Şuşa Qalasına sancıldı. Dünyanın ən xoşbəxt əsgəridir Şuşa Qalasına bayraq sancan əsgər! Dünyanın ən böyük sərkərdəsidir Şuşanı fəth edən Ali Baş Komandan! Dünyanın ən böyük xalqıdır Şuşaya sahib olan xalq! Möhtəşəmsən, əsgərim! Yenilməzsən, Ali Baş Komandanım! Əyilməzsən, məğrur xalqım!

Şuşa torpağında qədəmlərin mübarək olsun, şanlı ordum. Gözün aydın olsun, əzəmətli Şuşa Qalası, daha da gur çağla, İsa bulağı! Lalələrin, nərgizlərin bir daha solmasın, Cıdır düzü, həsrətdən, xiffətdən boynun bükülməsin, daim üzün gülsün, Xarı bülbül, qonaqların aşıb-daşsın, Karvansaray, duaların qəbul olunsun, Gövhər Ağa məscidi!

Ruhun şad olsun, Pənahəli xan Cavanşir, tikdirdiyin Şuşa Qalasında üçrəngli Azərbaycan bayrağı dalğalanır. Ruhun şad olsun, Xan qızı Natəvan, Şuşaya çəkdirdiyin "Xan qızı bulağı" bundan sonra daha gur axacaq. Ruhun şaddır, Molla Pənah Vaqif, Şuşada qoşduğun gözəlləmələr daha şövqlə səslənəcək dilimizdə bundan sonra.

Ruhun şaddır, Üzeyir bəy, "Koroğlu" Uverturası Şuşanın əzəmətli zirvələri, quşqonmaz qayaları ilə baş-başa, səs-səsə verib daha əzəmətli səslənəcək bundan sonra.

Ruhun şaddır, Xan əmi, Şuşanın dağları daha dumanlı deyil...

Ruhun şaddır, Qasım bəy Zakir, Mir Mövsüm Nəvvab, Nəcəf bəy Vəzirov, Cabbar Qaryağdıoğlu, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Bülbül, Lətif Kərimov, Niyazi, Rəşid Behbudov, Şirin Mirzəyev, Ramiz Qəmbərov...

Ruhun şad olsun, "Şuşa Azərbaycanın ən əziz və ən böyük tarixi olan bir guşəsidir" - söyləyən, hər zaman Şuşa ilə nəfəs alan, Şuşada Vaqifə, Xan qızı Natəvana abidələr ucaldan Ulu Öndərimiz Heydər Əliyev. Şuşanın ən uca zirvəsində sənin heykəlin ucaldılacaq - xalqımızın qəlbində çoxdan ucalmış heykəlin!

***Gözün aydın olsun, "Şuşasız bizim işimiz yarımçıq qalar" - deyən və bu haqq işini qeyrətlə, cəsarətlə, əzmlə başa çatdıran Ali Baş Komandanım! 2016-cı ilin aprel zəfərindən sonra Qarabağa qayıdışımızın simvolu olan Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərini tikməklə müqəddəs Şuşamızı heç zaman unutmadığınızı bir daha nümayiş etdirmişdiniz və bununla ən yaxın zamanda müqəddəs şəhərimizin - Şuşamızın işğaldan azad ediləcəyinin mesajını vermişdiniz! Qədirbilən xalqımız bilirdi ki, Sizin kimi Prezidentlə, Sizin kimi Ali Baş Komandanla o gün uzaqda deyil. Doğrudan da uzaqda deyilmiş o möhtəşəm gün!***

Bu gün o bəxtəvər günün sevincini yaşayırıq. Bəxtəvərsən Azərbaycan, Şuşada bayrağın dalğalanır! Əsgərlərimiz Şuşadan raport verir. Şuşa məscidindən 28 il sonra azan səsləri eşidilir. Duaların qəbul oldu, Azərbaycan! Allah səni hifz etdi. Dünya durduqca var ol, məmləkətim!

Bu gün doğma Azərbaycanımızın hər bir guşəsində olduğu kimi doğma Universitetimizin divarlarından asılan üçrəngli bayraqlarımız daha əzəmətlə, qürurla dalğalanır. Hamı Şuşamızın işğaldan azad olunmasının sevinci, həyəcanı içindədir. Hər kəs bu möhtəşəm günü bir möcüzə kimi yaşayır, hamı bu möcüzəni bizə yaşatdığı üçün cənab Prezidentimizə, Ali Baş Komandanımıza, müzəffər ordumuza sonsuz ehtiramını bildirir. Hər kəs tezliklə müqəddəs şəhərimizə - Şuşamıza gedəcəyi günü səbirsizliklə gözləyir...

***Elçin Babayev,***
***Bakı Dövlət Universitetinin rektoru***
***AZƏRTAC, 8 noyabr***

# Qarabağın fəthi Xalq-Komandan-Ordu birliyinin Qələbəsidir!

***Ali Baş Komandanımızın Şuşanın işğaldan azad edilməsi ilə bağlı tarixi müraciətində səsləndirdiyi "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" şüarı bütünlüklə Qarabağın, işğaldan azad edilən bütün torpaqlara həyatın qayıdacağı devizi kimi olduqca əzəmətli səslənir***

***XIX** əsrin əvvəllərindən başlayaraq Qafqazdakı tarixi Azərbaycan ərazilərinə, eləcə də qədim Qarabağın dağlıq hissəsinə köçürülən ermənilər ağalarının və nökərçilik etdikləri dairələrin dəstəyi ilə hər fürsətdə çirkin niyyətlərini həyata keçirməyə cəhd göstərmişdir. Bu başabəla toplum tarixi ərazilərimizdə etnik tərkibi öz xeyirlərinə dəyişdirmək üçün hər cür xəyanətə və rəzilliyə getmişdir.*

Uzun illər öz məkrli niyyətlərini gerçəkləşdirmək üçün real tarixi şəraitin yetişməsini gözləyən düşmən qonşu, təəssüf ki, ötən əsrin 90-cı illərinin əvvəllərində himayəçilərinin fəal dəstəyilə və həmin dövrdə ölkəmizdə baş alıb gedən hərc-mərclikdən, hakimiyyətsizlikdən istifadə etməklə soydaşlarımızın tarixi ərazilərimiz olan Qərbi Azərbaycandan deportasiyasına nail oldu. Bununla kifayətlənməyən təcavüzkar Ermənistan bolşeviklərin süni surətdə "Dağlıq Qarabağ" adlandıraraq erməni muxtariyyətinə çevirdikləri ərazilərlə birlikdə bütün Qarabağın 7 rayonunu da bir-birinin ardınca işğal etdi.

Bu zaman 1 milyondan artıq dinc soydaşımıza kütləvi surətdə divan tutub öz yurdundan qovan vəhşiləşmiş erməni silahlı birləşmələri Xocalı faciəsi, Daşaltı qətliamı kimi qanlı cinayətlər törətməklə bəşər tarixinin yaddaşına yeni qanlı səhifələr yazdılar. İşğal olunmuş 20 faiz ərazimiz talan edilib, oda qalandı, qaçqın və məcburi köçkünlər çadır şəhərciklərində, yük vaqonlarında, zirzəmi, yataqxana və təsərrüfat tikililərində acınacaqlı durumda, ən ağır şərtlər altında yaşamağa məhkum edildi.

Ümidsizlik girdabında boğulan, heç bir yerdən ciddi siyasi-mənəvi dəstək ala bilməyən, daxili çəkişmələr üzündən hər gün daha da çətin vəziyyətə düçar olan xalqımızı və dövlətimizi belə bir ağır məqamda Ümummilli Liderimiz Heydər Əliyev xilas etdi. 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə xilaskar missiyasında hakimiyyətə gələn Ulu öndərimiz qısa müddətdə siyasi iradə və təcrübə nümayiş etdirərək ölkədə əmin-amanlığa, sabitliyə nail oldu. Dünyanın nəhəng şirkətləri ilə mzalanmış neft müqavilələri və digər iqtisadi layihələrlə dövlətimizin iqtisadi qüdrəti yüksəldi, xalqımızın rifahı yüksəldi, sabitlik və inkişaf soydaşlarımızı ümidsizlik girdabından, sözün əsl mənasında, xilas etdi.

Dünyaya hərtərəfli inteqrasiya, fəal xarici əməkdaşlıq, faydalı diplomatik əlaqələrin qurulması ilə dost və tərəfdaş ölkələrin sayı artdı. Bütün bunların yaratdığı əlverişli şəraitdə zəruri ordu quruculuğu sahəsində də ciddi uğurlar əldə edildi. Ayrı-ayrı şəxslərə, qüvvələrə tabe olan silahlı birləşmələrin vahid komandanlıq altında birləşdirilməsi tezliklə öz bəhrəsini verdi. Arazqırağı cəbhə xəttində ilk qələbələr qazanıldı, itirilmiş torpaqların bir hissəsi geri qaytarıldı. Ölkəmizdə yaranmış milli birliyin və ordudakı intizamın gücünü görən düşmən atəşkəs sazişini imzalamağa məcbur oldu. Bütün bu xronologiya bir daha sübut edir ki, əgər Ulu Öndərimiz münaqişənin başladığı ilk dövrdə ölkəmizə rəhbərlik etsəydi, bu müsibətlərin heç biri xalqımızın başına gəlməyəcəkdi.

*2003-cü ildə Ulu Öndərimizin siyasi varisi, ən layiqli davamçısı İlham Əliyevin xalqımızın yekdil səsi ilə ölkə Prezidenti seçilməsi dövlətimizin tarixində yeni mərhələnin başlanğıcı oldu. Ulu Öndərin möhkəm təməllər üzərində qurduğu dövlətçilik ənənələri daha da inkişaf etdirildi, bugünkü şanlı Qələbəmiz üçün zəmin yaranmağa başlandı. İqtisadi yüksəliş səviyyəsinə görə dünyanın önə çıxan dövlətlərindən birinə çevrilən Azərbaycan hərbi quruculuğu ən yüksək səviyyədə apardı, silahlı qüvvələrimiz dünyanın ən müasir, qüdrətli orduları siyahısına daxil oldu. 2016-cı ilin Aprel zəfəri, 2020-ci ilin Tovuz qələbəsi Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi ordunun qarşısında heç bir gücün dayana bilməyəcəyini bütün dünyaya bəyan etdi.*

2020-ci il sentyabr ayının 27-də bədnam qonşularımız növbəti dəfə hərbi təxribat törədərək ölkəmizin yeni ərazilərini ələ keçirmək üçün hücuma keçdilər. Amma öz siyasi və hərbi gücünü, daha doğrusu, gücsüzlüyünü və rəzilliyini düzgün hesablaya bilməyən terrorçu Ermənistan dövləti və Paşinyan hakimiyyəti bu dəfə biabırçı məğlubiyyətə uğradı. Müzəffər ordumuzun güclü və sürətli əks-hücum əməliyyatı ilə başlayan müqəddəs Vətən savaşımız böyük Qələbə ilə nəticələndi. İkinci Qarabağ müharibəsinin ilk anlarından zəfər müjdəli Ali Baş Komandanımızın verdiyi müdrik və cəsarətli qərarlar, bütün dünyaya örnək olan xalq-iqtidar birliyi, qardaş və dost ölkələrin siyasi və mənəvi dəstəyi, ən başlıcası isə komandanlığın əmrlərini ən yüksək səviyyədə yerinə yetirən zabit və əsgərlərimizin rəşadəti hesabına əsarətdə olan torpaqlarımız işğaldan azad olundu, dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyümüz bərpa edildi.

Savaşın ilk anlarından strateji Murov zirvəsində, Füzulidə, Cəbrayılda, sonrakı günlərdə Suqovuşanda, Hadrutda, Zəngilanda, Qubadlıda üçrəngli şanlı bayrağımız ucaldıldı. Noyabr ayının 8-də - Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününü qeyd etməyə hazırlaşdımız bir məqamda isə Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Qarabağımızın ürəyi Şuşa şəhərinin işğaldan azad olunması müjdəsini xalqımıza çatdırmaqla şanlı tariximizin ən şərəfli, ən qürurlu səhifələrindən birini yazdı.

Vətən Savaşının başladığı ilk gündən cəsarətli, prinsipial və ardıcıl mövqeyini ortaya qoyan möhtərəm Prezidentimiz "Şuşasız bizim işimiz yarımçıq qalar - söyləmişdi və verdiyi bütün vədlər kimi, bu sözünə də ən qısa müddətdə əməl etdi. Bununla da xalqımızın qəlbindən Şuşa ağrısı, niskili əbədi olaraq silindi. Ali Baş Komandanımızın fəxarət və qürur hissi ilə səsləndirdiyi "Əziz Şuşa, sən bizimsən, sən azadsan, biz qayıtmışıq, biz səni dirçəldəcəyik!" - sözləri bu gün xalqımız üçün Şuşa dağlarında səslənən Koroğlu nərəsi qədər möhtəşəmdir, Şuşanın özü qədər müqəddəsdir.

Şuşa qalasının fəthindən cəmi bircə gün sonra Ali Baş Komandanımızın 72 yaşayış məntəqəsi və 8 strateji yüksəkliyin azad olunması xəbərini verməsi ilə düşmənin beli tamamilə sındı, olmayan ruhu yerlə-yeksan edildi. Cəmi bir neçə saat sonra düşmən yalvara-yalvara, ağlaya-ağlaya, xalqımızın qarşısında, möhtərəm Prezidentimiz, yenilməz sərkərdəmiz İlham Əliyevin qarşısında diz çökərək kapitulyasiyadan, ağ bayraq qaldıraraq təslim olmaqdan başqa yol tapmadı.

Müqəddəs şəhərimiz Şuşada yaxın ötən aylarda rəqs edən təlxək Nikol Paşinyan o qədər rəzil duruma düşdü ki, kapitulyasiya sənədini kabinetində deyil, gizləndiyi siçan deşiyində - gizli sığınacaqda imzalamaq məcburiyyətində qaldı. Bununla düşmən ölkəninn rəhbəri faşist fürer Hitlerdən də ağır bir tale yaşamağa məhkum olduğunu hər kəsə nümayiş etdirdi. Əslində, rəzil düşmənin bu cür biabırçı duruma düşəcəyini Vətən savaşının ilk günündən Ali Baş Komandanımız əminliklə söyləmişdi. Ermənistanın xunta rejimi savaşın sürdüyü 44 gündə ordusunu, hərbi infrastrukturunu, çökmüş iqtisadiyyatını tamamilə məhv etdi. Terrorçu dövləti sonu görünməyən fəlakətə sürüklədi.

Azərbaycan dövləti isə 44 günlük müharibə nəticəsində uzun illər dünya ölkələri və beynəlxalq təşkilatlar tərəfindən aparılan mənasız sülh danışıqları prosesinə son qoydu, tarixi ədaləti özü bərpa etdi. 27 il kağız üzərində qalmış BMT qətnamələri döyüş meydanında reallaşdırıldı. Eyni zamanda, Azərbaycan bu savaş ilə ədalətli müharibə aparmağın presedentini yaratdı. Dövlətimiz, müzəffər ordumuz bütün dünyaya bəyan etdi ki, o, qarşı tərəfdən fərqli olaraq, yalnız işğalçı qüvvələrlə döyüşür, yalnız legitim hərbi obyektləri məhv edir, mülki əhali və infrastruktur onun hədəfi deyil. Vətən müharibəsi günlərində əsir və girovlarla münasibətdə də Azərbaycan Ordusu peşəkarlıq, eyni zamanda, rəhm, təmkin nümayiş etdirdi, özünün əzmi, qüdrəti ilə yanaşı, ədalətini də bütün dünyaya sübut etdi.

***Bu tarixi Qələbə, eyni zamanda, uzun illərdir beynəlxalq təşkilatlar və güc mərkəzləri tərəfindən ortaya atılan "Qarabağ münaqişəsinin hərbi həlli yoxdur" tezisini də alt-üst etdi.*** Ali Baş Komandanımız və müzəffər ordumuz bu tezisin əksini döyüş meydanında sübut etdi. Döyüşdə qələbə çalan dövlətimiz diplomatik cəbhədə də uğur qazandı: nəhayət, Vətən müharibəsinin ilk günündən Ali Baş Komandanımızın haqqında bəhs etdiyi cədvəl tərtib olundu, işğal altında olan Laçın, Kəlbəcər və Ağdamın da azad olunacağı şanlı tarixlər məlum oldu. Bu müjdəni də Ali Baş Komandanımız xalqımıza böyük sevinc və qürurla çatdırdı!

Nəhayət, əsrlərlə haqqında danışılacaq, şəninə dastanlar, qəhrəmanlıq, zəfər nəğmələri qoşulacaq, tarixi salnamələrdə öz əksini tapacaq 44 günlük Vətən savaşımız qalibiyyətlə başa çatdırıldı. Terrorçu Ermənistan dövləti Ali Baş Komandanımız İlham Əliyevin bütün şərtləri, tələbləri ilə qeyd-şərtsiz razılaşmalı oldu. 15 noyabrda Kəlbəcərin, 20 noyabrda Ağdamın, 1 dekabra qədər Laçın rayonunun işğaldan azad edilməsi ilə Azərbaycanın dünya birliyi, beynəlxalq təşkilatlar tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunacaq, xalqımızın 30 illik həsrətinə son qoyulacaq.

Bu gün Ali Baş Komandanımızın Şuşanın işğaldan azad edilməsi ilə bağlı tarixi müraciətində səsləndirdiyi "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" şüarı bütünlüklə Qarabağın, işğaldan azad edilən bütün torpaqlara həyatın qayıdacağı devizi kimi olduqca əzəmətli səslənir. Müzəffər ordusunun gücü ilə tarixi ərazilərini qarış-qarış, addım-addım işğaldan azad edən Azərbaycan dövləti ən yaxın zamanda özünün iqtisadi gücünü, potensialını da bütün dünyaya nümayiş etdirəcək. Erməni vandalları tərəfindən dağıdılmış, məhv edilmiş şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz bərpa olunacaq, yenidən qurulacaq və soydaşlarımız həmin torpaqlarda öz firavan həyatlarına davam edəcəklər.

Müharibənin başa çatması, şanlı Qələbənin əldə edilməsi münasibətilə 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı məcburi köçkünlərə müraciət edən Ali Baş Komandan qətiyyətlə bildirdi ki, işğaldan azad olunmuş ərazilərdə, ilk növbədə, təhlükəsizlik tədbirləri görüləcək. Daha sonra isə bütün infrastruktur bərpa ediləcək, soydaşlarımız illərlə həsrətində olduqları dədə-baba yurdlarına dönəcəklər.

Xalqımız əmindir ki, Azərbaycan dövləti beynəlxalq hüququn verdiyi imkanlardan bəhrələnərək Ermənistanın terrorçu rəhbərliyinin, 30 il ərzində xalqımıza qarşı qanlı cinayətlər törətmiş şəxslərin, Xocalı qatillərinin hüquqi müstəvidə də cəzalandırılmasına nail olacaq. Terrorçu Ermənistan dövləti bu illər ərzində Azərbaycana vurduğu maddi və mənəvi zərərə görə təzminat ödəməyə məcbur ediləcək.

Bu şanlı Qələbənin əldə edilməsi üçün canlarını fəda edən şəhidlərimizin, eləcə də Birinci Qarabağ savaşında şəhid olanların xatirəsi xalqımız, dövlətimiz tərəfindən həmişə əziz tutulacaq, onların ailə üzvləri, yaxınları ölkəmizdə ən ali hörmətə, izzətə layiq olduqlarını hər an hiss edəcəklər. Döyüşlərdə yaralananlar, qazilərimiz hər zaman dövlətimizin himayəsində olacaqlar. Azərbaycan xalqı olaraq bu şanlı Qələbənin əldə olunmasında onlara borclu olduğumuzu hər zaman ehtiramla ifadə edəcəyik, qazilərimiz başımızın tacı, gözümüzün nuru olacaqlar.

Qüdrətli, yenilməz, ərazi bütövlüyünü bərpa edən, tarixi torpaqlarında üçrəngli bayrağını ucaldan Azərbaycan dövləti bu tarixi Qələbədən sonra daha da qüdrətlənəcək, inkişaf edəcək. Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz İlham Əliyevin liderliyi ilə xalqımız daha böyük gələcəyə, xoş sabahlara qovuşacaq.

Bu şanlı, tarixi Qələbənin əldə olunması münasibətilə bir daha xalqımızı, müqəddəs ata vəsiyyətini - Ulu öndərimiz Heydər Əliyevin razi bütövlüyümüzün bərpa edilməsi ilə bağlı arzularını həyata keçirən yenilməz Ali Baş Komandanımızı, müzəffər ordumuzu təbrik edirik. Vətən Savaşımızda canından keçən şəhidlərimizə Allahdan rəhmət diləyir, onların müqəddəs ruhları qarşısında baş əyirik.

***Qələbən mübarək, Azərbaycan! Fəthiniz mübarək, cənab Ali Baş Komandan! Qarabağ torpağında qədəmlərin mübarək, müzəffər Azərbaycan Ordusu! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!***

***Elçin BABAYEV,***
***Bakı Dövlət Universitetinin rektoru***
***"Xalq qəzeti", 14 noyabr***

# 17 Noyabr - Milli Dirçəliş Günüdür

## *Bu gün, Azərbaycanın müstəqilliyinin bərpa olunmasında önəmli və tarixi rol oynayıb*

**Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xüsusi diqqət yetirir, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınaraq müdafiə qüdrətini daha da artırır.**



*Əsrlərin sınaqlarından çıxan, tarixən keşmə-keşli yol keçən Azərbaycan müstəqil dövlətə sahib olmaq naminə əzmkarlıqla mübarizə aparıb. Azərbaycan xalqının azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən 17 noyabr - Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa olunmasında önəmli və tarixi rol oynayıb.*

Bu tarix Azərbaycan xalqının əbədiyaşar lideri Heydər Əliyevin müdrik siyasəti nəticəsində daha da əlamətdar xarakter alıb. Belə ki, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından “sovet” və “sosialist” sözləri çıxarıldı. Bununla da milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atılmış oldu. Ulu Öndərin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ müzakirə edildi. Üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Sessiya Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxararaq onun dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, Heydər Əliyev müasir və müstəqil Azərbaycanın şanlı tarixini yazdı.

Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəlişi xalqa ümid oldu. Bütün sahələrdə inkişaf müşahidə olunmağa başladı, xalqımızın milli dirçəlişi və mənəvi dəyərlərinin yüksək tutulması, adət və ənənələrimizin qorunub saxlanılması reallığa çevrildi.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xüsusi diqqət yetirir, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınaraq müdafiə qüdrətini daha da artırır. Qürurla deyə bilərik ki, Ali Baş Komandanımız və rəşadətli ordumuz 30 ilə yaxın düşmən tapdağında olan əzəli vətən torpaqlarımızı işğaldan azad edib. Ulu Öndərimizin müqəddəs vəsiyyəti yerinə yetirilərək qədim Şuşa şəhəri daxil olmaqla Qarabağ torpaqlarında Azərbaycan bayrağı dalğalanır.

*Bu Qələbənin mayasında rəhbər-dövlət-ordu-xalq birliyinin bərabərliyindən alınan güclü inam, möhtəşəm və sarsılmaz bağlılıq dayanır.*

---

# Təəssüf ki, dünya Azərbaycanlı uşaqların qətlinə susur

**Bu gün beynəlxalq təşkilatların göz yumduğu terror sərhəd tanımır və sabah digər ölkələrə qarşı da törədilə bilər. BMT-nin uşaq hüquqları ilə bağlı konvensiyası var. Uşaq hüquqları ilə bağlı konvensiyanın 38-ci maddəsi 15 yaşına qədər uşaqların müharibəyə cəlb edilməsini, onlardan istifadə edilməsini, onların həyatına təhlükə yaranmasını cinayət hesab edir.**

**Qarabağ məsələsində bu günə qədər mövcud olan “ikili standartlar” bu məsələdə də özünü göstərir.Bir ay ərzində həyata keçirilən təxribatlar, döyüş bölgələrindən uzaqda yerləşən şəhər və qəsəbələrimizdəki dinc əhaliyə qarşı törədilən hərbi cinayətlər nəticəsində 36 uşaq müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 11 uşaq qətlə yetirilib. Erməni terrorçularının dinc sakinlərə hücumu davam etdikcə bu rəqəmlər də dəyişir.**

Çox təəssüf olsun ki, 30 ildən bəri davam edən erməni aqressiyası və iddiaları, ədalətsiz müharibənin nəticələri qarşısında ötən müddətdə olduğu kimi, bu gün də bir çox dünya ölkələri, beynəlxalq təşkilatlar, hətta birbaşa bu problemin həlli ilə bağlı məsul olan ATƏT-in Minsk qrupu kimi təşkilatlar, onun həmsədrləri səslərini çıxartmadılar. Bu illər ərzində yalnız bölgəyə turist səfərləri edib növbətçi bəyanatlarını verməklə öz vəzifələrini bitmiş hesab etdilər. Bu gün artıq 34 gündür ki, erməni təxribatı qarşısında Azərbaycanın əks hücumları böyük uğurla davam edir, zəfərlə irəli addımlayırıq. Bu nailiyyətlərdən təşvişə düşən Ermənistanın siyasi və hərbi rəhbərliyi cavabı münaqişə bölgəsində ordumuza vermək yerinə, cəbhə bölgəsindən çox uzaqda olan tamamilə dinc əhalinin yaşadığı, ölkənin əhəmiyyətli , strateji və qədim şəhərləri olan Gəncə, Bərdə, Mingəçeviri, daha öncədən isə Tovuzu, hətta Naxçıvanın Ordubad şəhərini vurmağa başladılar. Onların içində xüsusən də son günlər Gəncəyə ard-arda ballistik raketlərdən atılan atəşlər və son olaraq Bərdədə bazar mərkəzinə atılan kaset tipli bombalar, onun nəticəsində çox sayda insanın həyatını itirməsi və yaralanması ilə nəticələndi. Təəssüf ki, ölən və yaralananların içində həyatını itirən, xəsarət alan uşaqlarımız var, hər iki valideynini, valideynlərindən birini itirən uşaqlarımız var. Bu uşaqların hamısının taleyi qırılıb, bundan sonrakı ömürləri böyük bir psixoloji travma ilə keçəcək. Onların uşaqlıqları beşiyindəcə boğulub. Onlar yatdıqları yerdə, evlərində dinc oturarkən qətlə yetiriliblər. Başqa vaxtlarda dünyaya demokratiya dərsi keçən, barmaq silkələməyi bacaran Avropa beynəlxalq qurumları bu gün ermənilərin yanındadır, ermənipərəst mövqe ortaya qoyurlar. Birbaşa uşaq hüquqları ilə məşğul olan UNİCEF uzun illərdən və son bir aydan sonra ilk dəfə dünən bəyanat yayıb. Lakin təəssüf ki, yenə də heç bir təsir gücünə malik olmayan, növbətçi, dişsiz bir bəyanat... Bu uşaqlar kimdir, hansı ölkəyə aiddirlər, heç ad və soyadları, yaşları qeyd olunmur, hadisənin harada baş verməsi qeyd olunmur. Nədir bu ikili mövqenin səbəbi, haqsızın yanında olmanın səbəbi?

Bu gün beynəlxalq təşkilatların göz yumduğu terror sərhəd tanımır və sabah digər ölkələrə qarşı da törədilə bilər. BMT-nin uşaq hüquqları ilə bağlı konvensiyası var. Uşaq hüquqları ilə bağlı konvensiyanın 38-ci maddəsi 15 yaşına qədər uşaqların müharibəyə cəlb edilməsini, onlardan istifadə edilməsini, onların həyatına təhlükə yaranmasını cinayət hesab edir. Ən azı buna əsaslanaraq səslərini çıxartmalıdırlar . Dünya bu qədər səssiz qala bilməz. Anlamalıdırlar ki, bu gün Azərbaycanın, İslamın, türkün gücündən qorxuya düşərək hücum edən Ermənistan və onların havadarları istənilən ölkəni nişan ala bilərlər. Çünki terrorun sərhədi yoxdur, məhdudiyyət tanımır, kimlik tanımır. O zaman bu güllələr, ballistik raketlər digər ölkələrə yönələ bilər. Bütün dünya, xüsusən də özlərini insan hüquqlarının carçısı hesab edən ölkələr duyarlı olmalı, Azərbaycanın haqlı mübarizəsinin yanında dayanaraq öz səslərini qaldırmalı, aqressora "dur" deməyi bacarmalıdırlar. Dur deyərkən bunu Azərbaycana da şamil edirlər, ancaq Azərbaycan heç kimin torpağına hücum etməyib, öz torpağında savaşır, öz vətəndaşlarını qoruyur və haqlı bir vətən müharibəsi aparır.

***Jalə Əliyeva,***
***Milli Məclisin deputatı,***
***BDU-nun Türk filologiyası kafedrasının professoru,***
***“Səs qəzeti”***

---

# Jurnalistika fakültəsi Bəyanat yayıb

***Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin professor-müəllim heyəti beynəlxalq qurumlar və beynəlxalq jurnalist təşkilatlarına Bəyanat yollayıb. Bəyanatda Azərbaycan ordusunun erməni təxribatına qarşı 27 sentyabr 2020-ci ildən başlayan əks-hücum əməliyyatları barədə dünya ictimaiyyətinin düzgün məlumatlandırılması istiqamətində hazırlanmış obyektiv, qərəzsiz reportaj və süjetlərin erməni lobbisi tərəfindən təhdid və təzyiqlə qarşılandığı vurğulanıb.***

Bəyanatda 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamaqla Ermənistanın BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymadığı, ATƏT-in Minsk qrupu çərçivəsində münaqişəni nizamlamaq üçün aparılan diplomatik danışıqları səmərəsiz etməsi göstərilib. Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, bu münaqişənin həm tarixi, həm də hüquqi-siyasi mahiyyəti barədə obyektiv təsəvvürün formalaşmasında beynəlxalq medianın rolunun olduqca önəmli olması qeyd edilib.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professor-müəllim heyəti jurnalistikanın obyektivlik, dəqiqlik və qərəzsizlik kimi ali prinsiplərinin rəhbər tutulmasının vacibliyini nəzərə çatdırmaqla, beynəlxalq təşkilatların jurnalistlərin peşə fəaliyyəti, hüquq və vəzifələri, informasiya ilə iş prinsipləri ilə bağlı qəbul etdikləri beynəlxalq sənədlərə istinad edərək beynəlxalq təşkilatları, beynəlxalq jurnalist qurumlarını məsələyə münasibət bildirməyə, erməni diasporu və lobbisinin media qurumlarına, ayrı-ayrı jurnalistlərə qarşı təhdidlərinə, zorakı hərəkətlərinə son qoymağa çağırıblar.

# Bərdə şəhəri təkcə Azərbaycanın deyil, Şərqin qədim mədəniyyət mərkəzlərindən biridir

***Azərbaycan tarixən şəhərlərin, şəhər mədəniyyətinin inkişaf etdiyi mərkəzlərdən biri olmuşdur. Bərdə şəhəri hələ ən qədim dövrlərdən ölkəmizin ictimai-siyasi və mənəvi-mədəni həyatında önəmli yer tutan şəhərlərdən biri olmuşdur. Bərdə şəhəri təkcə Azərbaycanın deyil, bütövlükdə yaxın və Orta Şərqin ən qədim yaşayış mərkəzlərindən, eləcə də mədəniyyət, sənətkarlıq və ticarət mərkəzlərindən biri kim tanınmışdır. Bunu arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri, həmçinin Makedoniyalı isgəndər, Arakilər (Arşakilər) və Roma imperatoru Oktavian Avqust dövrünə aid pullar sübut edir. Həmçinin əldə edilmiş mənbələr və materiallar da Bərdənin hələ erkən orta əsrlərin əvvəllərində mövcud olan qonşu ölkələrlə sosial-iqtisadi və mədəni əlaqələrinin olduğunu göstərir.***

Bərdə şəhərinin salınması haqqında mənbələr müxtəlifdir. Ərəb tarixçisi Bəlazuri (IX əsr) Bərdənin Sasani hökmdarı I Qubadın (483-531), İran tarixçisi Həmdullah Qəzvini (XIV ər) Makedoniyalı İsgəndərin (e.ə. 336-323) dövründə salındığını bildirir. Alban tarixçisi Movses Kalankatlının məlumatına görə, Bərdə Alban hökmdarı II Vaçe dövründə Firuzun (459-484) göstərişi ilə salınmışdır. "Kitabi-Dədə Qorqud" dastanında Bərdədən geniş bəhs olunur.

Heç şübhə yoxdur ki, Albaniyanın digər əraziləri kimi Qarabağ bölgəsinin, o cümlədən Bərdə əhalisinin də etnik komponentlərindən biri türk tayfaları idi. Bərdədə türk etnoslarının hələ e.ə. III-II minilliklərdən yaşamaları elmə məlumdur.

Sasanilər dövründə (226-651) Bərdə canişinliyin mərkəzi olmaqla, ümumiyyətlə orta əsrlər dövründə Bərdə Azərbaycanın eləcə də regionun elm,mədəniyyət, sənətkarlıq, ticarət mərkəzi kimi tanınmışdı.

Albaniya çarı II Vaçe Bərdənin sosial-iqtisadi, mədəni və strateji əhəmiyyətini nəzərə alaraq ölkənin paytaxtını Qəbələdən bu şəhərə (Bərdəyə) köçürmüşdü.

***Dövrünün mühüm siyasi hadisələrindən biri də Bərdənin Alban xristian kotolikosluğunun mərkəzinə çevrilməsi idi.***

Alban hökmdarı Cavanşirin işğalçı xəzərləri (628-630), iran feodallarını (639), ərəb qoşunlarını Bərdədən qovması şəhərin inkişafına şərait yaratmışdı. Hələ VII əsrdə Bərdədə 100 min əhali yaşayırdı və onun 90 faizi türklər idi. 752-ci ildə isə Bərdə Aran vilayətinin (ərəblər dövründə) mərkəzi olmuşdur.

VIII-IX əsrlərdə Bərdə mühüm elm, mədəniyyət və ticarət mərkəzi kimi çiçəklənmə dövrünü yaşamış və Yaxın və Orta Şərqin möhtəşəm yaşayış məntəqələrindən biri kimi məşhurlaşmışdı. Həmçinin dövrünə görə tanınmış "Əl-Kürkiy" bazarı Bərdə darvazasının yaxınlığında yerləşirdi. Bərdə həm də Xürrəmilər hərakatının əsas güc mənbələrindən biri idi. XIII əsrdə Bərdədə yerli pulların kəsilməsi şəhərin regionda, həmçinin ölkəmizlə qonşu ölkələr arasında ticarət əlaqələrində əhəmiyyətli rol oynamasına səbəb olmuşdur.

Dövrün bəzi mənbələrində "Aranın anası", "Aranın baş şəhəri" də adlandırılıb. Albaniyanın şahı elan edilən Varaz-Qriqor 630-cu ildə Mehranilərin iqamətgahını Girdimandan Bərdəyə köçürdü.

Mənbələrin verdiyi məlumata görə, Sasanilərlə birlikdə Ərəblərə qarşı mübarizəni dayandırıb vətənə qayıdan Cavanşir Bərdə şəhərində böyük sevinclə və təntənə ilə qarşılandı. Cavanşir Bərdəyə soxulmuş sasani qoşunlarını qılıncdan keçirərək Bərdə şəhərini azad etdi. Beləliklə Mehranilər dövrünün görkəmli hökmdarı, böyük sərkərdə, müdrik dövlət xadimi Cavanşirin dövründə Albaniya və onun paytaxtı Bərdə şəhəri yadellilərin hücumundan qorunub və bu da Bərdənin sonrakı inkişafında mühüm rol oynamışdır.

Yaxın və Orta Şərqin sənətkarlıq və ticarət mərkəzi kimi tanınmış Bərdə 944-cü ildə rusların qarətçi, talançı yürüşünə məruz qaldı. Rusların irəli sürdükləri şərtlərə uyğun olaraq bir gün ərzində şəhəri tərk etməyən bərdəlilərə divan tutuldu. Rusların əmrinə tabe olmayan, irəli sürülən şərtləri yetirməyən bərdəlilər məscidə topIandı və hər bir şəxsdən 20 dirhəm pul tələb olundu. Pulu ödəyə bilməyən 20 min nəfər vəhşicəsinə qətlə yetirildi. Şəhər dağıdıldı, uzun müddət dirçələ bilmədi, əhali vahimə içərisində yaşayırdı, sənətkarlıq və ticarət tənəzzülə uğradı, pul kəsilməsi dayandırıldı. Həmçinin məşhur Bərdə şəhəri və onun bazarı əvvəlki əhəmiyyətini itirdi. Bu hadisə N.Gəncəvinin "İsgəndərnamə" əsərində Bərdə faciəsi kimi təsvir edilmişdir.

Bərdə X əsrdə (993) Şəddadilər dövlətinə daxil edilir, XI əsrdə Səlcuqların, XII əsrdə Eldəgizlərin hakimiyyətinə tabe edilir və tədricən yenidən yüksəlməyə başlayır. Lakin şəhər monqolların ilk yürüşləri zamanı yenidən dağıntılara məruz qalmış, Elxanilər dövründə (1256-1357) bərpa olunmuşdur. Teymurilərin Azərbaycana yürüşləri zamanı (1386-1400) Bərdə şəhəri yenidən viran edilmişdi.

Bərdə şəhəri sonrakı dövrdə Baharlı, Bayandurlar dövründə və Səfəvilər dövründə əvvəlki qüdrətini bərpa edir, yenidən sənətkarlıq və ticarət mərkəzinə çevrilir. Xanlıqlar dövründə Bərdə Qarabağ xanlığının tərkibində olmuş, 1805-ci ildə Qarabağ xanlığının ruslara tabe olmasından (1805 may Kürəkçay müqaviləsi əsasında) və 1822-ci ildə xanlığın ləğvindən sonra ruslar bütün Qarabağa olduğu kimi Bərdəyə də ermənilərin köçürülməsinə başladılar. 1828-ci ildə Türkmənçay müqaviləsinin 15-ci maddəsinə uyğun olaraq Bərdə ərazisinə 1000-dən çox erməni ailəsi köçürülmüşdü. 1828-1918-ci ilə qədər (Rusiyanın Azərbaycanda mütəmləkə dövründə) Bərdə Yelizavetpol quberniyasının tərkibində olmuş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bərdə şəhəri Şimali Azərbaycanın tərkibində olmuşdur.

Ümumiyyətlə, Bərdə tarixən və indi də Azərbaycanın nəinki inzibati və dini, həm də ölkəmizin sosial-mədəni və iqtisadi mərkəzi rolunu oynayan şəhərlərindəndir. Şəhər Qərb ilə Şərq və Şimal ilə Cənub ticarət yollarının üzərində yerləşən Bərdə orta əsrlərdə Şərq ticarətinin düyün nöqtəsi adlandırılmışdır.

***Bərdə rayonu 1930-cu ildə inzibati ərazi statusunu almışdır və bir şəhər, 110 kənddən ibarətdir. Rayonda 73 müəssisə, 32 məktəbəqədər uşaq müəssisəsi, 76 məktəb, 16 tibb müəssisəsi, 205 mədəniyyət ocağı vardır.***

Bərdə rayonu 8 avqust 1930-cu ildə təşkil olunmuşdur. Kür - Araz ovalığının şimal-qərb hissəsində yerləşir.

Bərdə şəhəri qədim mədəniyyət mərkəzi olmaqla qədim dövrümüzə bir sıra tarixi-mədəni abidələr qorunub saxlanıb. Bu abidələr Bərdənin qədim şəhər kimi zənginliyini, əzəmətini təcəssüm etdirməklə yanaşı, şəhərin tarixinin aynasına çevrilərək turizm baxımdan da bu gün xeyli önəm kəsb edir.

Təmir və bərpası yaxın vaxtlarda başa çatdırılan 1322-ci ildə inşa olunan Bərdə türbəsi də rayonun tarixi mədəni irsinin zənginliyindən xəbər verir. Türbənin ətrafında daha qədim tarixə malik Torpaqqala adlı müdafiə divarları da diqqəti cəlb edir. Ümumiyyətlə rayon ərazisindəki tarixi abidələr yerli və xarici turistlərin böyük marağına səbəb olur.

***Şəhərdə yerləşən və Bərdənin qədim və zəngin mədəniyyətini, tarixini təcəssüm etdirən irsin bir hissəsi Tarix-Diyarşünaslıq muzeyində sərgilənir.***

Respublikada Bərdənin də daxil olduğu "Beş dövrün beş paytaxtı" adlı turizm marşrutunun təqdimatı keçirildi. Bu turizm marşrutuna tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində yaranmış dövlətlərin paytaxtı olmuş Bakı, Gəncə. Bərdə və Şamaxı şəhərləri daxildir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycanın ən yeni şanlı tarixini yazan yenilməz sərkərdə İlham Əliyevin 2020-ci il sentyabrın 27-də erməni faşistlərinin təxribatlarının qarşısını almaq və 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etmək üçün verdiyi əks-hücum əmri uğurla həyata keçirilir. Artıq işğal altında olan 4 şəhər, 3 qəsəbə və 170-dən çox kəndimiz azad edilmişdir. Döyüş meydanında qüdrətli azərbaycan ordusu ilə bacarmayan, silah-sursatını qoyub qaçmağa başlayan erməni silahları, hətta əsgərlərimizlə döyüşməkdən imtina edirlər.

Vəziyyətdən çıxmaq üçün Ermənistanın baş naziri faşist məzmunlu Nikol Paşinyan insanlığa, bəşəriyyətə qarşı ən qanlı cinayətə əl atmağa üstünlük verir.

Ermənistanın faşist rəhbərliyi oktyabrın 10, 17 və 27-də tərəflər arasında əldə edilmiş humanitar atəşkəs rejimini pozaraq Beynəlxalq Hüququn norma və prinsiplərinə, 1949-cu il Cenevrə konvensiyasının məlum müddəalarına zidd olaraq Azərbaycanın döyüş bölgəsindən 70-100 kilometr uzaqlıqda olan şəhərlərimizi - Gəncəni (4,10, 17.X), Tərtəri, Mingəçeviri, Goranboyu, Ağcabədini, Beyləqanı və digərlərini istifadəsi qadağan edilmiş, ballistik, artilleriya, kasetli raketlərdən dinc , mülki əhalini, obyektləri, yaşayış evlərini atəşə tuturlar.

Təəssüflə qeyd edirik ki, erməni faşistləri oktyabrın 4, 11 və 17-də Azərbaycanın ikinci şəhəri Gəncəni raket və ağır artilleriya atəşinə tutmuşdur. Nəticədə 10 qadın, 6 uşaq olmaqla 26 nəfər dinc sakin həlak olmuş, 138 nəfər isə müxtəlif dərəcəli xəsarət alıb, yaralanıb. Lakin aidiyyatı beynəlxalq təşkilatların, qurumların və bir sıra lider dövlətlərin bu vəhşiliyə, terrora ciddi yanaşmaması, erməni faşistlərinin getdikcə azğınlaşmasına səbəb olmuşdur.

Nəticədə, faşist Nikol Paşinyanın əmri ilə oktyabrın 27 və 28-də Erməni silahlı qüvvələri döyüş meydanından kənarda yerləşən Bərdə şəhərini də raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozaraq "smerç" qurğusundan buraxılmış kasetli raketlə atəş nəticəsində 4 mülki şəxs, o cümlədən 7 yaşlı qız həlak olmuş və 4 uşaq olmaqla 14 nəfər yaralanmışdır.

Erməni faşistlərinin təcavüzkar siyasətinin, cinayətlərinin davamı olaraq, 2020-ci il oktyabrın 28-də saat 13:00 radələrində Bərdə şəhərinin dinc sakinlərinin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin komplekt yerləşdiyi əraziyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumillikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat taktiki təyinatlı böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbələri endirilməsi nəticəsində 5 qadın olmaqla, 21 nəfər həlak olmuş, 8-i uşaq, 15-qadın olmaqla 70 şəxs yaralanmışdır.

Həmçinin raket zərbəsinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evlərinə və 22 nəqliyyat vasitəsinə xüsusilə külli miqdarda ziyan dəymişdir.

***Lakin Bərdə sakinlərinin qisası yerdə qalmır və Ali Baş Komandanın əmri ilə döyüş meydanında erməni faşist işğalçılarına layiqli cavab verilir, ərazilərimizdən biabırcasına qovulur.***

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə çox qısa müddətdə Bərdə də törədilən vəhşiliklərin, dağıntıların nəticələri aradan qaldırılacaq.***

Zəngin keçmişi və qədim ənənələri olan Bərdə şəhəri Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatında özünəməxsus yer tutmuş, dövlətçiliyimiz tarixinə töhfələr vermişdir. Qarabağ torpağının tarixi məkanlarından biri sayılan Bərdənin gözəllikləri-ni və əzəmətini hələ XII əsrdə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi əsərlərində tərənnüm etmişdir. Bərdə rayonu ərazisindəki tarixi memarlıq abidələri, o cümlədən XIV əsrə aid Axsadan baba və Bərdə türbələri, XVIII əsrə aid Səkkizguşəli türbə və İbrahim məscidi maddi-mədəni irsimizin qiymətli nümunələri sırasındadır.

Son illər ərzində yeni inkişaf mərhələsinə qədəm qoyan Bərdə öz tarixi simasını saxlamaqla, sürətlə abadlaşır. Burada bir sıra mühüm infrastruktur layihələri uğurla həyata keçirilərək, müasir Müalicə-Diaqnostika Mərkəzi və Olimpiya İdman Kompleksi, təhsil və səhiyyə obyektləri, yeni istirahət guşələri inşa olunmuş, yollar çəkilmişdir.Bərdənin tarixi abidələri, bərəkətli torpağı və hazırkı infrastruktur tikinti-abadlıq işləri aparılarkən rayonun özünəməxsusluğunun nəzərə alınması və mövcud potensialdan maksimum dərəcədə səmərəli istifadə olunmasını zəruri edir.

Bərdənin qədim tarixi-mədəni irsinin və memarlıq abidələrinin mühafizəsi, rayonda abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində müəyyən edilmiş tədbirlərin səmərəli həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti "Bərdə rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır.

***İbrahim Zeynalov,***
***Tarix fakültəsinin professoru,***
***Sia.az saytı***

# BDU-nun əməkdaşlıq etdiyi xarici ölkə universitetlərindən Azərbaycana dəstək

***Dünya universitetlərinin rəhbərlərindən Azərbaycanın haqq savaşına dəstək məqsədilə cavab məktubları gəlməkdə davam edir. Eyni zamanda Qarabağda baş verən münaqişə ilə bağlı obyektiv məlumatın göndərilməsinə görə BDU rektoruna təşəkkür edilir.***

*Xəbər verdiyimiz kimi, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev bu ali təhsil müəssisəsinin əməkdaşlıq etdiyi xarici ölkə universitetlərinin rektorlarına Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məktub ünvanlayıb. Dünyanın 200-dən çox ali məktəbinə ünvanlanan məktubda rektor dünya universitetlərinin diqqətini Azərbaycanda gedən Vətən müharibəsinə yönəldərək, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində genişmiqyaslı hərbi təxribat törətməsi, Azərbaycanın döyüş mövqelərini və yaşayış məntəqələrini, mülki əhalini ağır artilleriyadan atəşə tutması barədə məlumat verilib. Qadınlar və uşaqlar da daxil olmaqla dinc sakinlər arasında çox sayda ölən və yaralananların olduğu, həmçinin mülki obyektlərə, yaşayış binalarına, müxtəlif tikililərə, o cümlədən maddi mədəni irs nümunələrinə ziyan dəydiyi bildirilib.* Erməni silahlı qüvvələrinin işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinin və Qoşulmama Hərəkatı, ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu beynəlxalq təşkilatların digər analoji qərarlarının icra edilməsinin və ədalətin bərpa edilməsi üçün beynəlxalq hüququn tam gücünü tətbiq etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Məktuba cavab olaraq dünya universitetlərinin rəhbərlərindən Azərbaycanın haqq savaşına dəstək məqsədilə cavab məktubları gəlməkdə davam edir. Eyni zamanda Qarabağda baş verən münaqişə ilə bağlı obyektiv məlumatın göndərilməsinə görə BDU rektoruna təşəkkür edilir. Almaniyanın Halle-Wittenberg Martin Luther Universitetinin rektoru Christian Tietje və Waterloo Universitetinin rektoru Hamdullah Pura, Türkiyənin Ardahan Universitetinin rektoru Mehmet Biber və Vyana Diplomatik Akademiyasının direktoru Emil Brix məktub ünvanlayıb. Məktublarda tezliklə Azərbaycanda sülhün yenidən bərqərar olunacağına inam, Azərbaycan xalqına və Bakı Dövlət Universitetinə ən xoş arzular öz əksini tapıb.

# "Bayraq mənliyimdir" adlı tədbir keçirilib



***Filologiya fakültəsində 9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününə həsr olunmuş "Bayraq mənliyimdir" adlı tədbir keçirilib.***

*Onlayn tədbir Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Fakültənin III kurs tələbəsi Sezər Məmmədli Azərbaycan bayrağının tarixindən bəhs edərək, bayrağın dövlətin bütövlük, müstəqillik, yenilməzlik, ucalıq, müqəddəslik rəmzi olduğunu vurğulayıb.*

Sonra Azərbaycan xalqının tarixin müxtəlif dövrlərində qurduğu dövlətlərin bayraqlarından bəhs edilən videoçarx nümayiş olunub.

Tədbirdə Filologiya fakültəsinin dekanı, dosent Elçin Məmmədov çıxış edərək iştirakçıları 9 noyabr - Dövlət Bayrağı Günü və döyüş meydanında son günlər əldə olunan tarixi qələbələr münasibətilə təbrik edib, Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlət rəmzlərinə, o cümlədən, Dövlət Bayrağına münasibətinin hər bir vətəndaş üçün nümunə olduğunu diqqətə çatdırıb.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Vaqif Sultanlı dövlət bayrağımızın çətin və keşməkeşli tarixindən, beynəlxalq miqyasda tanınmasından, Azərbaycan bayrağının rəmzi mənasından söz açıb, ədəbiyyatımızda bayraq mövzusunda yazılmış ədəbi nümunələr haqqında məlumat verib.

Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov sentyabrın 27-dən - hərbi əməliyyatların başlanmasından etibarən fakültənin əməkdaş və tələbələrinin orduya göstərdikləri dəstəkdən, bu istiqamətdə fakültənin həyata keçirdiyi tədbirlərdən, gənclərin informasiya müharibəsindəki aktivliyindən söz açıb.

Sonra tələbələrin ifasında vətənpərvərlik mövzusunda musiqi və şeirlər təqdim olunub.

Sonda Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının əməkdaşları - professor Mətanət Abdullayeva və dosent Rəhilə Quliyeva sevinc və qürur hisslərini iştirakçılarla bölüşüb, tədbirin təşkilatçılarına təşəkkür ediblər.

# Bayrağımız ölkəmizin işğaldan azad olunmuş bütün yaşayış məntəqələrində dalğalanacaq



Ermənistanın baş naziri Nikol Paşinyan bir sıra xarici dövlətlərin dəstəyinə arxalanaraq, Azərbaycana qarşı hərbi təxribatlara başladı. Lakin həmin dövlətlərin dəstəyi də onu xilas edə bilmədi. Paşinyan dövlət başçılığına layiq olmadığını, savadsızlığını, səriştəsizliyini bir daha təsdiqlədi. Hakimiyyətə küçə və meydanlardan gəlmiş baş nazir əvvəldən dərk etməli idi ki, kasıb, rəzil Ermənistan dövləti güclü iqtisadiyyata, müasir silah-sursatla təchiz edilmiş peşəkar orduya malik Azərbaycanla müharibə aparmaq iqtidarında deyil.

İşğalçı Ermənistan bütün sahələrdə ölkəmizdən çox geri qalır. Bunun əsas səbəblərindən biri də Prezident İlham Əliyevin bu illər ərzində düşünülmüş, müdrik daxili və xarici siyasət yürütməsi, Azərbaycan dövlətinin imicini yüksəklərə qaldırması, güclü, nizami ordu formalaşdırmasıdır. Ermənistanın sentyabrın 27- də başladığı genişmiqyaslı təxribat bu ölkənin iç üzünü bir daha açdı. Artıq Ermənistanın kütləvi informasiya vasitələrində də ölkə iqtisadiyyatının tamamilə çökməsi, zəruri ərzaq qıtlığı ilə yanaşı, sürətlə bahalaşma getdiyi bildirilir.

Ermənistanda iqtisadi vəziyyət o qədər acınacaqlıdır ki, Paşinyan hakimiyyəti artıq ordusunu ərzaqla, hərbi sursatla təmin etmək iqtidarında deyil. Bu. azmış kimi, təcavüzkar orduda fərarilik baş alıb gedir. İşğalçı ölkə vətəndaşları nəinki vuruşmaqdan, hətta orduya getməkdən imtina edirlər. Bununla bağlı parlamentdə də qərar qəbul olundu: fərariliyə görə 6 ildən 12 ilə qədər həbs cəzası təsdiqləndi. Lakin bu da yaranmış gərginliyə təsir edə bilməz. Artıq Ermənistan vətəndaşları da başa düşürlər ki, onlar başqa dövlətin torpaqlarında vuruşub ölürlər. Hər yerdən ümidi üzülən Paşinyan xaricdə yaşayan ermənilərə üz tutub və onları Qarabağda döyüşməyə çağırır.

Prezident İlham Əliyev müharibənin ilk günlərində qeyd edirdi ki, Ermənistan tərəfindən Azərbaycana qarşı xarici muzdlular vuruşurlar. Buraya xaricdən gətirilmiş erməni millətindən olan muzdlularla yanaşı, Suriya və İraqdan gətirilən PKK və YPG terrorçuları da daxildir. Məğlubiyyətin bir addımlığında olduğunu hiss edən Paşinyan artıq din xadimlərini də zorla döyüşə göndərir. Halbuki, bütün dinlərdə olduğu kimi, ermənilərin sitayiş etdiyi xristianlıq da zorakılığı qəti inkar edir.

Ermənistanda siyasi- hərbi rəhbərliyin istefasına çağırışlar başlanıb. Keçmiş rəhbərliklərdən də artıq Paşinyanın istefası barədə çağırışlar səslənir. Siyasi ekspertlərin də qeyd etdikləri kimi, bu gün artıq Paşinyan Qarabağ haqqında deyil, vəziyyətin gündən-günə ağırlaşdığı Ermənistan dövlətinin mövcudluğu haqqında düşünməlidir.

Əminik ki, Azərbaycan Ordusu müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin başçılığı ilə yaxın günlərdə Qarabağda tam qələbə qazanacaq. Azərbaycan bayrağı Şuşa, Xankəndi də daxil olmaqla, işğaldan azad edilmiş bütün şəhər və kəndlərimizdə dalğalanacaq. Bütün dünya Azərbaycanın nə qədər güclü və qüdrətli dövlət olduğunu bir daha görəcək.

***Kamilə Əliyeva,***
***Milli Məclisin deputatı,***
***BDU-nun kafedra müdiri, professor.***
***"Xalq qəzeti", 7 noyabr***

# BDU və Kyunqvoon Universiteti arasında memorandum imzalanıb



13 noyabrda beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və dünya universitetləri ilə əlaqələrin genişləndirilməsi strategiyasına uyğun olaraq, Bakı Dövlət Universiteti Koreyanın Kyunqvoon Universiteti ilə akademik əməkdaşlıq haqqında anlaşma memorandumu imzayıb. Sənədi BDU-nun rektoru Elçin Babayev və Kyunqvoon Universitetinin prezidenti Han Sunq Vok imzalayıb.

Memorandum təhsil və tədqiqat sahəsində hər iki universitet arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədini daşıyır. Memoranduma əsasən, hər iki universitet arasında müəllim-tələbə mübadiləsi, layihə və proqramların işlənib hazırlanması, birgə elmi-tədqiqatların aparılması, müasir tələblərə cavab verən tədris proqramlarının hazırlanması, beynəlxalq konfransların keçirilməsi və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulub.

Əlavə olaraq qeyd edək ki, Kyunqvoon Universiteti ilə əməkdaşlıq çərçivəsində 2018-ci ildən etibarən BDU-nun nəzdində Koreya mədəniyyətinin və Koreya dilinin xarici və ya ikinci dil kimi yayılması məqsədilə Bakı King Sejong İnstitutu fəaliyyət göstərir.

# 12 noyabr - Azərbaycan Respublikasının Konstitusiya Günüdür

### *Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir.*

***Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 25 il ötür. Müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib və noyabrın 27-də qüvvəyə minib. Dövlətin bu Əsas Qanununun yaradılmasında Bakı Dövlət Universitetinin elm xadimlərinin də müstəsna xidmətləri olubdur.***

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyalarda isə 1925-ci il martın 14-də və 1978-ci ilin aprelin 21-də qəbul edilmişdir.

Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəddir. Konstitusiya insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edir.Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi. İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyillərinə istinad olunmuş, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın - konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulmuş, bu müddəaya əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılmışdır.

Ötən 25 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da referendum yolu ilə Azərbaycan Konstitusiyasına bir sıra əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. Konstitusiyaya edilən bu əlavə və dəyişikliklər nəticəsində Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qələbə münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrik məktubunda qeyd etdiyi kimi, buna görə "Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Onun rəhbərliyi ilə müasir, güclü Azərbaycan Ordusu yaradılıb! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı. Prezidentimizin güc mənbəyi olan Azərbaycan xalqının hörməti, sevgisi, etimadı, inamı və dəstəyi ona Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini başa çatdırmaqda kömək etdi. Onun başçılığı ilə biz xalqımızın özünəinamını qaytaran Qələbəni qazandıq! Bu Qələbənin möhtəşəmliyi Azərbaycan dövlətinin tarixində əbədi qalacaq!"

# Tarixi abidələrimiz bizim əbədi keçmişimizdir

İndi isə gələk ermənilərin son üç gündə ətrafında ciddi "şou-maskarad" düzəltdikləri, az qala divarlarını acgözlüklə yalayaraq içində "timsah göz yaşları" axıtdıqları Xüdavənk məbədinə.

Bu məbəd də alban babalarımıza məxsusdur. XII-XIII əsrlərdə - Alban knyazlığının yüksəlişi dövründə Qarabağ bölgəsində bir çox xristian məbədləri ucaldılmışdı. Xaçın knyazlığı isə onların arasında xüsusilə seçilirdi. Bu nəslin nümayəndəsi, hökmdar və böyük mütəfəkkir Həsən Cəlal qısa müddət ərzində alban knyazlıqlarını birləşdirmiş, Albaniya çarı adını qazanmışdı. Onun tikdirdiyi Gəncəsar məbədi isə Albaniya katolikosluğunun mərkəzinə çevrilmişdi. Xüdavənk məbədi məhz bu Alban hökmdarı Böyük Həsən, onun oğlu Vaxtanq və həyat yoldaşı, qıpçaqların "böyük bəylərbəyi Qurd"un qızı Arzu Xatun tərəfindən inşa edilib.

Məbədin adında olan "Hüda" fars dilində "yaradan" (bu sözdən türklər də orta əsrlərə aid dini və bədii ədəbiyyatlarında geniş istifadə etmişlər), "Vənk" isə türkcədə "məbəd" deməkdir. Maraqlı məqam ondan ibarətdir ki, ermənilərin bu məbədi "Dadavank" adlandırmaları da türklərlə bağlıdır. Baxmayaraq ki, ermənilər "dada" sözünü apostol Fadeyin tələbəsi olmuş və Qafqazda xristianlığı təbliğ etmiş və mənbələrə görə orada dəfn edilmiş Tadeylə əlaqələndirirlər. Lakin istənilən dilçi təsdiq edə bilər ki, Tadey adının Dadi şəklinə düşməsi mümkün deyil. Yəni bu izah, ermənilərlə bağlı olan hər şey kimi fiksiyadır, yalandır! Bu məbəd öz möhtəşəmliyi və əhəmiyyətinə görə Albaniyada seçilirdi. Məhz bu səbəbdən yerli qıpçaq və alban türkləri məbədə "dədəvənk" - yəni "məbədlərin dədəsi" adını vermişdilər!

İnşallah, tezliklə tarixi keçmişimizin yadigarı olan bu məbədimizə də qovuşacağımız və ziyarət edə biləcəyimiz günə az qalıb.

**Qarabağ AZƏRBAYCANDIR!!!**

***Vüqar Əliyev,***
*Jurnalistika fakültəsinin dekanı,*
*filologiya elmləri doktoru*

REKTORLARIMIZ...

# Elm və ədəbiyyat adamı



*Cəfər Xəndan*

Cəfər 1910-cu ildə Azərbaycanın qədim torpağı olan İrəvanda anadan olub. Atası Zeynal kişi müəllim idi. Cəfərin 8 yaşı olanda ailə Gəncəyə köçür. Amma bu köç ailəyə xoşbəxtlik gətirmir. Cəfər hər iki valideynini itirir. Başsız qalan uşaqlar "Gəncə uşaq evi"nə təhvil verilir və burada 1925-ci ilə kimi qalırlar. 1925-ci ildə Cəfər "Gəncə Pedaqoji Texnikumuna daxil olur". Şeirə, ədəbiyyata olan marağı onu Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinə gətirir. Görkəmli elm xadimlərindən, sənət adamlarından bədii və elmi yaradıcılığın sirlərini öyrənən Cəfər Xəndan ömrünü ədəbiyyata, elmə həsr etməyi qərara alır. İnstitutu əla qiymətlərlə bitirən gənc aspiranturaya daxil olur və burada assistentlikdən rektor vəzifəsinə kimi ucalır. O, BDU-nun rektoru olmazdan əvvəl 1949-1950-ci illərdə ADPİ-də rektor vəzifəsində çalışıb.

1939-cu ildə "M.Ə.Sabirin həyat və yaradıcılığı" mövzusunda namizədlik, 1947-ci ildə isə "1906-1946-cı illərdə Cənubi Azərbaycan xalqının milli azadlıq mübarizəsi və onun ədəbiyyatda inikası" mövzusunda doktorluq dissertasiyalarını uğurla müdafiə edən C.Xəndan imzasını elm aləmindən əvvəl ədəbi aləmdə tanıdıb.

1941-ci ildə Böyük Vətən Müharibəsi başlayanda Cəfər Xəndan müharibədə həm sözü, həm silahı ilə vuruşdu. Cənub-Qərb, Şimali Qafqaz, Zaqafqaziya cəbhələrində siyasi şöbənin baş təlimatçısı və bir sıra cəbhə qəzetlərinin əməkdaşı, məsul katibi kimi sözünü də dedi. "İlk ayrılıq", "Cəbhə şeirləri", "Qafqaz" kitabları həmin ağrılı-acılı günlərin könül çırpıntılarını, hicran yanğısını əks etdirən təəssüratın məhsulu oldu.

Azərbaycan ədəbi mühitində özünəməxsus sözü və yeri olan ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, şair, pedaqoq, "Azərbaycan filologiyasına böyük töhfələr verən" C.Xəndan bir neçə dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların, şeirlər kitabının müəllifidir. Professor Qara Namazovun təbirincə desək "dövrünün ədəbi prosesinin ilk bələdçisi olan, gündəlik ədəbiyyatla yaşayan, nəfəs alan, 1940-1950-ci illər ədəbi tənqidinin görkəmli nümayəndəsi olan" C.Xəndanın elmi və bədii yaradıcılığı dövrünün "qayda-qanun"ları çərçivəsində, "tələb və təklifləri" sayəsində hasilə gəlib. Odur ki, bu məqalədə "XX əsr ədəbiyyatımızın görkəmli mütəxəssisi kimi" tanınan ədibin yaradıcılıq dünyasından geniş bəhs etmək fikrində deyilik. Bu məqalədə C.Xəndanın BDU-ya rəhbərlik etdiyi illərdən bəhs olunacaq.

BDU-ya 1950-ci ilin noyabr ayından rəhbərlik etməyə başlayan Cəfər Xəndan ədəbiyyatçı olmasına baxmayaraq, universitetin bütün fakültələrinə qayğı ilə yanaşıb. Bütün çətinliklərə baxmayaraq, C.Xəndanın BDU-ya rəhbərliyi dövründə universitet bir çox uğurlara sahib olub. 1953-1954-cü dərs ilində universitetdə 54 kabinet və laboratoriya fəaliyyət göstərib. Universitetdə professorların, doktorların və elmlər namizədlərinin sayı xeyli artıb. 1954-cü ildə universitet 1,2 mln. manat məbləğində avadanlıqla təchiz edilib. 1952-ci ildə geologiya-coğrafiya fakültəsində ilk dəfə "Neft və qaz yataqları kəşfiyyatının geofiziki metodları" ixtisası üzrə qəbul keçirilib. 1953-1954-cü dərs ilində bütün fakültələrdə, xüsusilə fizika-riyaziyyat, biologiya, geologiya-coğrafiya fakültələrində müsabiqə olub. 1954-cü ilin ortalarında BDU-nun rektoru vəzifəsindən uzaqlaşan C.Xəndan elə həmin vaxtdan ömrünün sonuna kimi (1961) BDU-da "Sovet ədəbiyyatı" kafedrasına rəhbərlik edən C.Xəndan cəmi 51 il yaşadı, yaratdı, sevdi, sevildi...

***Qərənfil Dünyaminqızı,***
*Milli mətbuat tarixi kafedrasının dosenti*

# Qarabağda qalmayacaq izi düşmənin



*Vəliyulla Cəfərov*

Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində böyük sevinclə Füzuli şəhərinin və kəndlərimizin işğaldan AZAD olduğu xəbərini çatdırdı və bildirdi ki, bu qələbənin bizim zəfər tariximizdə xüsusi yeri var. Füzuli əməliyyatı barədə əsərlər, kitablar yazılacaq.

Həmin sevincli anların təsiri altında yazdığım şerləri bu silsilədən olacaq əsərlərin ilki kimi oxuculara təqdim etməyi özümə borc bildim.

Qaçıb gedir.Qovulacaq,
Külü göyə sovrulacaq.
Əvvəl-axır qırılacaq
Dizi düşmənin.
-----------
Deyə- deyə ağa qara...
Rəvac verdi hərbə zora.
Əməlindən düşüb tora
Özü düşmənin.
-----------
Harayına hay verən yox.
Dilənçidir pay verən yox.
Tarix boyu olmayıb tox,
Gözü düşmənin.
-----------
Xalqla rəhbər bir candır!
QARABAĞ
AZƏRBAYCANDIR!
Biryolluq tükənib
haçandır...
Sözü düşmənin.
----------
Daha güzəşt olmayacaq
Bir qarış da almayacaq
Qarabağda qalmayacaq!
İzi düşmənin.

# BDU-nun birinci kurs tələbələrindən 15 nəfəri Prezident təqaüdçüsüdür

**İnsan kapitalının inkişafını daim diqqət mərkəzində saxlayan Bakı Dövlət Universitetinin də əsas məqsədi məhz savadlı, bilikli, müasir təhsil yeniliklərini mənimsəmiş, dövlətçilik prinsiplərini, azərbaycançılıq məfkurəsini və milli-mənəvi dəyərlərimizi əsas tutan mütəxəssislər yetişdirməkdir.**

*Yaxşı təhsil almaq, arzusu olduğu ixtisasın mütəxəssisi kimi yetişmək hər bir tələbənin ali məqsədidir. Yeni tədris ili də yeni bir mərhələnin başlanğıcıdır: yeni tədris ili, yeni ixtisaslar, yeni müəllimlər, yeni mühit... Yüksək bilik və bacarığa malik olan Prezident təqaüdçüləri ilə nə qədər qürur duysaq, az olar bəlkə də.* 101 illik şanlı tarixə malik elm məbədi - Bakı Dövlət Universitetində təhsil almağın ikiqat qürurunu yaşayan qəbul imtahanlarında yüksək nəticə göstərən Prezident təqaüdçülərini təbrik edirik. Bu il də birinci kursa qəbul olunan tələbələrimiz arasında belə bacarıqlı gənclər çoxdur. BDU həm Prezident təqaüdçüləri, həm də 600-dən yuxarı bal toplayan digər tələbələrin sayına görə respublikanın ali məktəbləri arasında öndə gəlir. Sevindirici haldır ki, son illər yüksək bal toplayaraq BDU-nu seçən abituriyentlərin sayında artım davam edir.

İnsan kapitalının inkişafını daim diqqət mərkəzində saxlayan Bakı Dövlət Universitetinin də əsas məqsədi məhz savadlı, bilikli, müasir təhsil yeniliklərini mənimsəmiş, dövlətçilik prinsiplərini, azərbaycançılıq məfkurəsini və milli-mənəvi dəyərlərimizi əsas tutan mütəxəssislər yetişdirməkdir. Universitetdə elm və təhsilin inteqrasiyası, elmi potensialın gəncləşdirilməsi, gənc nəslin tələbəlik illərindən tədqiqata yönləndirilməsi məqsədi ilə yüksək bal toplayaraq Universitetə qəbul olunmuş və araşdırmaya xüsusi maraq göstərən tələbələrin, o cümlədən Prezident təqaüdçülərinin elmi fəaliyyətə cəlb edilməsi istiqamətində intensiv işlər aparılır.

Xatırladaq ki, Azərbaycan ikinci dəfə müstəqilliyini qazandıqdan sonra ilk illərdə ölkədə gənc kadrlara yaranan böyük ehtiyac səbəbindən Ümummilli Lider Heydər Əliyevin "Prezident təqaüdü" təsis etməsi haqqında 2001-ci il 3 sentyabr tarixli 564 saylı fərmanı yerli kadrların yetişdirilməsi işinə böyük töhfə olub.

2020/2021-ci tədris ilində 102 Prezident təqaüdçüsündən 15-i BDU-nu seçib. Əminik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın təhsilə və elmə göstərdikləri diqqət və qayğı tələbələrimizə daima stimul verəcək, təqaüdçü tələbələr savadlı, elmli, bacarıqlı bir mütəxəssis kimi yetişəcək, fəaliyyətlərində vətənpərvərlik, dövlətçilik prinsiplərini əsas tutacaq, eyni zamanda, Bakı Dövlət Universitetinin adına hər zaman şərəf və şöhrət gətirəcəklər.

***Birinci kurs Prezident təqaüdçülərimiz:***

1. Məlikov Anar Şaiq oğlu
2. Paşayeva Səba Göray qızı
3. Əhmədova Fatimə Rza qızı
4. Vəliyeva Kifayət Vüqar qızı
5. İsparova Ləman Rizvan qızı
6. Məmmədzadə Azadə Zaur qızı
7. Kərimli Aydan Cəsarət qızı
8. Qarayev Mətin Vüqar oğlu
9. Əzimzadə Rüstəm Eyvaz oğlu
10. Əsgərli Zeynəb Ramil qızı
11. Əliyeva Fidan Faiq qızı
12. İsmayılov Rüfət Rəşad oğlu
13. Salamova Hədiqə Vüqar qızı
14. Əliyeva Fəzilə Samir qızı
15. Bağırov Siyavuş Mehdi oğlu

# 13 əcnəbi tələbədən 8-i BDU-nu seçib



Ali təhsil dünyanın siyasi, iqtisadi, ictimai, ideoloji və mədəni həyatını əhəmiyyətli dərəcədə dəyişmiş qloballaşmanın daha çox təsir göstərdiyi sahələrdən biridir. Hazırda beynəlmiləlləşmə konsepsiyası ali təhsil sahəsində fəaliyyətin ayrılmaz tərkib hissəsinə və mühüm inkişaf amillərindən birinə çevrilib. Bu gün Azərbaycan təhsilindən yalnız ölkə vətəndaşları deyil, həm də digər dövlətlərin vətəndaşları yararlanırlar.

2020/2021-ci tədris ili üzrə hökumətlərarası sazişlər çərçivəsində Tacikistan Respublikası və Çin Xalq Respublikası vətəndaşlarından Azərbaycan ali təhsil müəssisələrinə qəbul olunan 13 nəfərdən 8-i Bakı Dövlət Universitetini seçib. Tələbələrin ikisi (bakalavriat) Tacikistan Respublikası, altısı (magistratura) Çin Xalq Respublikasının vətəndaşlarıdır. Xarici vətəndaşlar ali təhsil müəssisəsində tədris dilini bilmədikləri halda, müvafiq dil hazırlığı keçdikdən sonra əsas təhsilə başlayırlar. BDU-da xarici tələbələrin təhsili üçün hərtərəfli şərait yaradılıb.

Əlavə edək ki, Azərbaycan Respublikasında əcnəbi vətəndaşların təhsili Nazirlər Kabinetinin 56 nömrəli, 06.03.2001-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşlarının təhsil almaq üçün xarici ölkələrə göndərilməsi və xarici ölkə vətəndaşlarının Azərbaycanın tədris müəssisələrində təhsil almaları haqqında Əsasnamə" ilə tənzimlənir.

# Ömrün Ağdam yolları

***Bu dünyada hər kəsin böyük Vətənindən əvvəl bir mikrovətəni olur. Böyük Vətənin şəhər sakininin onun o şəhərdən, doğulduğu məhəllədən başladığı kimi, böyük şəhər sakininin mikrovətəni də onun doğulduğu kənddən başlayır.***

Mən Azərbaycanımızın - böyük Vətənimizin gül-çiçək mərkəzi olan Ağdamın güllü-çiçəkli Novruzlu kəndində doğuldum. Sonradan qovuşduğum böyük şəhərlər, məkanlar incimәsin, ömrümün ilk 18 yaşını başa vurduğum o kənd taleyimin yaddaşında Kəbələrdən, Məkkələrdən də müqəddəs bir məkan kimi qaldı. Mən o kəndin birmərtəbəli, aynabəndi kiçik bir məktəbində oxudum. Bu orta məktəbin bir zamanlar mənə verdiyi bilik başımı çox yerdə uca elədi. Ətrafdakı altı kəndin 7-ci sinfini bitirən yüzlərlə şagird Novruzlumun kiçik binalı o orta məktəbində təhsillərini başa vurdular. Ömrümün ən əziz xatirələrini qoyub çıxdığım o kənd Xudu Məmmədov (ruhu şad olsun), Rafiq Əliyev kimi dünya şöhrətli alimlər verdi Azərbaycanıma. Müasir Azərbaycan dramaturgiyasının, nəsrin ustad ədibi Əli Əmirli dünyaya o kənddə göz açdı. Qardaşım Zeynal Məmmədovun ayrılmaz dostları olan Xudu Məmmədov, Bəxtiyar Vəhabzadə, Nurəddin Rzayev, Şamil Əsgərov, Şahmar Əkbərzadə kimi dostları Novruzlunun müntəzəm əziz qonaqları idi.

Mən güllü-çiçəkli, bağlarında min bir meyvəsi, geniş taxıl, pambıq tarlaları olan o kəndi 18 yaşımda tərk edib Ukraynanın Lvov vilayətində, Rusiyanın gözdən-könüldən uzaq Kamçatkasında üç illik əsgərlik həyatı keçirdim.

O illərin hər gününü Ağdam həsrəti ilə yaşasam da, orta məktəbdəki ədəbiyyat müəllimlərinin- qocaman Təyyar Abbasovun (ruhu şad olsun) bu gün də mənə təsəlli olan 88 yaşlı Səlim Əzimovun, fizika müəllimim Abdulla Məhərrəmovun mənim mütləq universitet tələbəsi olacağıma ümidlərini unutmadım. Və mən Rusiyanın o uzaq Kamçatkasından bir başa Bakı Dövlət Universitetinə qəbul imtahanına gəldim. Novruzludakı doğmalarımın da ağlına gəlməzdi ki, mən 1964-cü ilin isti avqust günlərində universitet tələbəsi olacam. Qəbuldan dərhal sonra Bakı-Yevlax qatarı məni təşnə ilə gəldiyim Ağdama çatdırdı. Mikrovətən necə şirin olur, Allahım! Azərbaycanın ən inkişaf eləmiş Ağdamı, onun 9 kilometrliyindəki Novruzlu kəndi- mənim Kəbəm, Məkkəm, Mədinəm! O kəndin hər sakini- uşaqdan tutmuş qocasınadək hər kəs məni təbrikə gəldi. Və taleyimin Ağdam-Bakı yolu o gündən başladı...

Azərbaycanın müxtəlif regionlarından tələbələrini müqəddəs universitetimiz birləşdirdi. Bu tələbələrin universitet həyatı bizə yeni bir Vətən, yurd sevgisi qismət elədi. Nə gizlədim hərə öz diyarı, öz rayonu, öz kəndi ilə fəxr edirdi. Çoxları universiteti bitirib doğma diyarlarına qayıtdı. Amma tələbəlik illərində, az qala, hər həftə yazımı dərc edən "Bakı" qəzetinin redaktoru Nəsir İmanquliyev, dərslərində fəallığımı diqqətdə saxlayan Şirməmməd Hüseynov məni bitirdiyim fakültədə qalıb elmi-pedaqoji fəaliyyətlə məşğul olmağımı məsləhət bildilər. Birdəfəlik qaldım bu böyük, bir az ögey, bir az doğma bu şəhərdə. Bu zamanda ömrünün Ağdam yolları bir az da intevsivləşdi. Bütün doğmalarımın, ən əzizlərimin, xatirələrimin qaldığı məkanı necə unuda bilərdim? Yollar bizi böyütdü. Övladlarıma ən ciddi tapşırığım bunlar idi: Danışığınız ancaq Ağdam ləhcəsində olmalıdır!

Hər şey öz düzənində, hər şey öz istədiyimiz kimi. Hətta indiyədək Bakıdan çıxan qatar Yevlağa gedib ordan avtobusla Ağdama yollanırdıqsa, indi ayırıca bir Ağdam-Bakı qatarımızda var...

... Və indi bir gün yağı düşmən, çörəyimizə, suyumuza, hörmətimizə, dövlət qayğımıza xəyanət edən erməni1ər özləri xisləti müdafiəçilərinin köməyilə külli-Qarabağı qan içinə sürüklədilər və taleyimin, ömrünün Ağdam yollarının qarşısını kəsdilər. İyirmi yeddi il o yollara həsrət qaldım. Hər dəfə kiminsə dilə gətirdyi Ağdam, Novruzlu kəlmələri içimi, ürəyimi parçaladı. Bircə təsəllim vardı: Prezident İlham Əliyev Qarabağa hər səfərində bu torpaqlara mütləq qayıdacağımızı o qədər qətiyyətlə vəd edirdi ki, onun bu inamına şəkk eləmək olmazdı. Özünün ad gününü Ağcabədidə salınan qaçqınlar şəhərciyində sakinlərə açar təqdim etmə mərasimi ilə keçirən belə bir liderə inanmamaq olmazdı...

Amma bizim Prezidentimiz azad olunmuş bütün torpaqlarımızda infrastrukturun yenidən əvvəlkindən də yaxşı yaradılacağını dilə gətirdi. Onun Ağdam məscidinə qış soyuğunda ayaqalın şəkildə daxil olması, o məscidin qarşısında xalqa tarixi müraciəti də heç vaxt unudulmayacaq. Ölkəmizə bütün rəhbərliyi dövründə verdiyi vədlərə həmişə sadiq qalmış bu insanın Ağdamın tezliklə gülüstana çevirmək vədi də mütləq reallaşacaq.

*Və mən indi yenidən Ağdam yollarına qovuşmaqdayam. Bu yollar mənə dünyanın məbədə aparan ən müqəddəs yollarından müqəddəsdir.*

*Açıq yolların mübarək, mənim əyilməz Ağdamım!*

*Açıq yolların mübarək, mənim Xudu ruhlu Novruzlum!*

***Cahangir Məmmədli,***
***BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri***
***30 noyabr, "Şərq qəzeti"***

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Həmid Vəliyev
Allahverdi Məmmədli
Nəsir Əhmədli

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:** 27.11.2020
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.